# AĞDAM ƏDƏBİ MƏCLİSİ TƏQDİM EDİR



## NAZİLƏ NİHAN

### *LAMƏKANAM*

Çəkil insan, mən sizdən biri deyiləm,
Nə qurbanam, nə ətim halal, yeyiləm,
Nə sərvətəm, insan gözündə seviləm,
Yerin təkindən oynayan bir təkanam!
Laməkanam, laməkanam!

"La ilahə illəllahın" bitdiyi yer,
Mələklərin Allaha vəd etdiyi yer,
Şeytanın da "ləbbeyk"deyib getdiyi yer,
Əribada ün çatmayan bir məkanam!
Laməkanam, laməkanam!

"Cəlcəlutam", buludlardan nur tökənəm,
"Zilzal" kimi dag-daşın bagrın sökənəm,
Yüz on dörddən İslamda qala tikənəm,
Günahlara gedən yolda sıx tikanam,
Laməkanam, laməkanam!

"Elmi-ləduni" hikmətin dərk edənəm,
Ay ikiyə şaqqalansa görk edənəm,
Harutla Marut elmini tərk edənəm,
Sirr içində sirr gizləyən bir məkanam!
Laməkanam, laməkanam!

Səfiyullah Adəmin tək günahıyam,
Xəlilullah İbrahimin pənahıyam,
Kəlimullah Musa kimi söz şahıyam,
Hərəkətdə hər nə görsən mən sükanam!
Laməkanam, laməkanam!

İsrafilin alnındakı o naməyəm,
Cəbrayılla gələn nura pərvanəyəm,
Əzrayılın can aldıgı tək ayəyəm,
Mikayılla damcı sayan bir ərkanam!
Laməkanam, laməkanam!

Göyqurşagın yeddi rəngdə toxuyanam,
"Lövhi-Məhfuzu" sözbəsöz oxuyanam,
Cənnət mənəm, yüz cür ətir qoxuyanam,
Rəqayılın hökmü olan bir məkanam,
Laməkanam, laməkanam!

Nur topuyam, dogulmadım, yoxdur anam,
"Ol" deyərək hər bir şeyi yaradanam,
Ruhu alıb cisminizi saraldanam,
Sirri nihan, özü pünhan bir məkanam!
Laməkanam, laməkanam!

### *QƏMİN YUVASINA BARMAQ UZATMA*

Qəmin yuvasına barmaq uzatma,
Çıxsa ilan kimi çalacaq səni!
Qəfildən şıgıyıb qıy vura-vura,
Yenib caynagına alacaq səni!

Çox ziyan vuracaq ürəyə, cana
Qan-qargış töksən də zalım dövrana,
Arabir çevirib o yan, bu yana,
Ətyeyən quş kimi yolacaq səni!

Dost tanış halından bir şey bilməsə,
Dogmalar gözünün yaşın silməsə,
Köməyinə tək Allahın gəlməsə,
Düşmən tənəsinə salacaq səni!

# *BİZ QOVUŞMADIQ*

Kür-Araz çaglayıb yetdi mənzilə,
Çay çaya qovuşdu, biz qovuşmadıq!
Ömür sular kimi axıb getdikcə,
Ay aya qovuşdu, biz qovuşmadıq!

Daglar dərələrin bəndi, dayagı,
Sellər çaylaqların oldu qonagı.
Çatladı qönçənin qaymaq dodagı,
Yaz yaya qovuşdu, biz qovuşmadıq!

Nə aldıq dünyadan, nə verdik ona?
Gah mələk, gah şeytan saldı min dona.
Sənsiz günlər saydım, yetmədi sona,
Say saya qovuşdu, biz qovuşmadıq!

Bu qara sevdanın çoxdu qurbanı,
Ruhu yedəkləyib gedən sarvanı.
Üz-üzə gəldikcə gəlin karvanı,
Toy-toya qovuşdu, biz qovuşmadıq!

İllər qar elədi qara telimə,
Həsrət öz yükünü çatdı belimə.
Ömrümü ox edib atdım ölümə,
Ox yaya qovuşdu, biz qovuşmadıq!

# *YERALTI ŞƏHƏR*

Dünən bir şəhər gördüm,
Qapısında adı yox.
Nə gələni, gedəni,
Nə dogması, yadı yox.

Bu şəhərdə bulaqlar,
anaların göz yaşı,
Oglu burda olanın,
Dümag agarıb başı!

Bu şəhərin evləri,
Hamısı bir otaqlı!
Buranın sakinləri,
Kəfənindən yataqlı!

Nədənsə bu şəhəri,
Yer altında qazıblar!
Hər kəsin ünvanını,
Baş daşına yazıblar!

Bu şəhərdə hər kəsin,
Hərbi paltar əynində!
Gəzdiyimiz torpaqlar,
Dayanıbdı çiynində!

Bir qarış ala bilməz,
Durub hər yoldan ötən!
Nə qədər ki, onlar var,
Heç vaxt basılmaz vətən!

Buranın bir yolu var,
O da şəhid yoludur!
Bu şəhər vətənimin,
Bir qeyrət simvoludur!

Heyf ki bu igidlər,
Hələ açmamış soldu!
Hər şəhid özü boyda,
Vətən torpagı oldu!

# DƏRD

İndi kimi dindirsən,
Dərdi başından aşır.
Dərd qoca bir qurd kimi,
İçimizdə dolaşır!

Hər kəs dərd əsiridir,
Qardaş, ana, ata da!
Köhnəlmiş qargış kimi
dərd gezişir ortada!

Bu qədər alimlər də,
Çarə tapmayıb dərdə.
Bir səltənət yaradıb,
Yer üzündə hər yerdə!

Elmini sərf etməsə,
İblisin əməlinə.
Bəşər bir yol tapardı,
Düz dərdin təməlinə!

İnsan oglu, ta bəsdi,
Şeytanla olma yarı!
Çəkdiyimiz dərdlərin,
Dərmanın da tap barı!